# Tarixi məhəllələri

***Ağabəylilər / Ağabəylər məhəlləsi*** – Naxçıvan şəhərinin ən qədim məhəllələrindən biridir. Adı Kəngərli mənşəli Ağabəylilər nəsli ilə bağlıdır. Bəzi mülahizələrə görə məhəllə indiki Heydər Əliyev prospekti ilə Atatürk küçəsinin kəsişməsindən Böyük bağa (keçmiş "Padşahlıq bağı"na) qədər olan ərazidə yerləşirmiş. Məhəllə adının mənşəyi Kəngərli elinin əsas qollarından biri olan Ağabəyli tayfasının adı ilə bağlıdır. Kəngərlilərin Ağabəylilər tayfası Naxçıvan şəhəri və ətraf kəndlərdə yaşamışlar. Naxçıvan diyarının və Dərələyəz mahalının kəndlərində yaşayan Ağabəylilər maldarlıq, əkinçilik və heyvandarlıqla məşğul olmuşlar. Bu tayfa adına XVI-XVII əsrlərə aid qəbalə sənədləri və digər mənbələrdə rast gəlinir. Ağabəylilər Naxçıvan xanlığının ictimai-siyasi həyatında yaxından iştirak etmiş, "Nadir şah Əfşarın hakimiyyəti dövründə (1736–1747) sarayda məsul vəzifələrdə işləmiş, bir qismi vəkilliklə məşğul olmuşdur. Ağabəylilər tayfasına öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirmiş.

***Anbar məhəlləsi*** – Naxçıvan şəhərində, indiki "Yaşıl aptek" yerləşən yaşayış binasının yerində qədimdə mövcud olmuş bazara gələn kəndlilər və Yaxın Şərq ölkələrindən gələn tacirlər satacaqları malları bir neçə günlüyə indiki mədəniyyət sarayı ilə üzbəüz binaların yerində mövcud olmuş anbarlara yığırdılar. Buna görə də ətraf ərazi Anbar məhəlləsi adlandırılırdı. Məhəllədə mehmanxana, yeməkxanalar, çayxanalar, məscid və sairə olmuşdur. Məhəllə bir neçə yüz illik tarixə malikdir. Onun adına XVII əsrə aid sənədlərdə rast gəlinir.

***Atabəylər məhəlləsi*** – Məhəllənin adı Naxçıvan şəhərinin tarixində mühüm rol oynamış və onu paytaxt şəhərə çevirmiş Atabəylər (Eldənizlər) sülaləsinin adı ilə bağlıdır. Məhəllə şəhərin qədim tarixə malik olan ərazisində yerləşməklə öz tarixi memarlıq abidələri ilə diqqəti cəlb edir. Əcəmi seyrangahı yaxınlığında yerləşən məhəllədə, Möminə Xatun türbəsi, Naxçıvan Xan Sarayı kimi dəyərli memarlıq abidələri yerləşir.

***Buzxana məhəlləsi*** – Yaşlı nəslin nümayəndələri şəhərin bir neçə yerində buzxana olan yerlərin olduğunu təsdiqləyir, ancaq məhz Buzxana məhəlləsinin yerini xatırlaya bilmirlər. Qeyd edək ki, Azərbaycan ərazisində "buzxana"lann ən böyüyü Naxçıvandakı İmamzadə türbəsi kompleksi yaxınlığında olsa da, məhəllə həmin ərazidə yerləşməyib. Buzxana məhəllə adı böyük mütəfəkkir C. Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" adlı əsərində də işlənmişdir: "Xudayar bəy üz qoydu bazara. Yeddi girvənkəlik qəndlərdən bir kəllə alıb vurdu geyməsinin altma və bazardan çıxıb Buzxana məhəlləsini tutub başladı getməyə". Müəllifin bu fikrini əsas götürüb belə təxmin edirik ki, Buzxana məhəlləsi keçmiş şəhər bazarına yaxın ərazidən (Arxivlər idarəsi, Zaviyyə məscidi yaxınlığından) başlamış və şəhərin mərkəzi hissələrində yerləşmişdir.

***Cıdıllı məhəlləsi*** – Məhəllə vaxtilə şəhərin kənar ərazisi hesab olunmuş indiki Naxçıvan Dövlət Dram Teatrının yerləşdiyi əraziləri, ətrafdakı bağlıq sahəni əhatə etmişdir. XX əsrin 40–50-ci illərinə kimi məhəllənin geniş ərazisində cıdır yarışları

keçirildiyindən xalq arasında məhəllə Cıdırlı məhəlləsi adlandırılmışdır. Fonetik səslənmədə (assimilyasiya) "r" samitinin "l" samiti ilə əvəzlənməsi məhəllənin adının sonralar Cıdıllı məhəlləsi kimi yaddaşlarda qalmasına gətirib çıxarmışdır.

***Cığatay məhəlləsi*** – Naxçıvan şəhərinin ən qədim məhəllərindən biridir. Məhəllənin salınma tarixi XIII əsrə təsadüf edir. Bu dövrdə monqollar Azərbaycanı işal etmiş və monqol mənşəli Hülakülər sülaləsi Azərbaycanda hakimiyyətə gəlmişdi. Azərbaycana gələn monqolların arasında bir sıra türkdilli tayfalar, o cümlədən cığataylar da olmuşdur. Monqolların Naxçıvandan çəkilməsindən sonra Azərbaycana gəlmiş cığataylar kəngərlilərin tərkibinə qarışmış, şəhərin müəyyən hissəsini özləri üçün yaşayış yeri seçmiş və orada məskunlaşmışdırlar.

***Çaparxanlı məhəlləsi*** – Məhəllənin adının "çapar" sözü ilə əlaqədar olduğu güman edilir. Keçmişdə çaparların, qasidlərin çoxu bu məhəllədə yaşadığından məhəllənin bu cür adlandırıldığı, ilkin adının isə "Çaparxana" olduğu mülahizəsi irəli sürülmüşdür. Sonrakı dövrdə Naxçıvan şəhərində yaradılmış ilk poçt məntəqəsi də məhz Çaparxanlı məhəlləsində yerləşmişdir.

***Dabbaqxana məhəlləsi – Naxçıvan şəhərinin sənət və peşə ilə bağlı məhəlləsi.*** Məhəllə naxçıvanlıların qədim zamandan dəri aşılamaqla məşğul olduqlarını təsdiqləyir. Hazırda mövcud olmayan həmin məhəllənin yerində eyni adlı çeşmə qalmışdır.

***Dizə məhəlləsi*** – "Dizə" toponimi Naxçıvan MR ərazisində geniş yayılmışdır. Muxtar respublikanın əksər rayonlarında belə yer adları vardır. Mütəxəssislərin fikrincə "dizə" bir neçə ailənin yığışıb kiçik bir məhəllədə, yaxud kənddə məskunlaşması deməkdir. Dizə məhəlləsi şəhərin indiki məişət xidmət evi, elmi mərkəz, avtovağzala qədər olan ərazisini əhatə etmişdir.

***Əlixan məhəlləsi*** – Məhəllənin adı Azərbaycanın zadəgan sülalələrindən biri olan Əlixan sülaləsinin adı ilə bağlıdır. Azərbaycan yazıçı və dramaturqu Hüseyn Cavid də məhz bu məhəllədə doğulmuş və yaşamışdır. Ədibin Naxçıvan şəhərindəki ev muzeyi də hazırda bu məhəllədə yerləşir.

***Ərsəni məhəlləsi –*** Naxçıvan şəhərində mövcud olmuş və adı yaddaşlardan silinmiş məhəllə adıdır. Bu ada XVI-XVIII əsrlərə aid qəbalə sənədlərində təsadüf olunur. Sənəddən aydın olur ki, məhəllə şəhərdəki Qaraçuq məhəlləsinin yanında, Xeyrabad bağına yaxın ərazidə yerləşirmiş. Ehtimal edirik ki, Ərsəni sözü "meydan, sahə", "qiyamətdə dirilən ölülərin toplanacağı meydan" mənasında işlənən ərəb mənşəli Ərəsat sözünün fonetik dəyişikliyə uğramış variantıdır.

***Xıncov məhəlləsi*** – Xıncov məhəlləsi Naxçıvan şəhərinin ən böyük məhəllələrindən biridir. Məhəllə SSRİ dövründə "Oraq kolxozu" adlandırılırdı. Bu məhəllənin əhalisi əsasən kəndlərdə dolana bilməyən və ya kənd həyatı yaşamaq istəmədiyindən Naxçıvana köçən sakinlərdən ibarət olmuşdur. Onların çoxu xüsusilə Böyük Vətən Müharibəsi (1941–1945) illərində Naxçıvan (indiki Babək) və Şahbuz rayonlarının kəndlərindən köçərək burada məskunlaşmışdılar. Xıncov məhəlləsinin adı çox güman ki Babək rayonunda yerləşən Xıncab kəndiylə eyni mənşəlidir. Həmçinin Kəngərli rayonunda da Xıncab kəndi mövcuddur. Hər iki

kəndin adı farsca "xinq / xınq" (boz, tutqun, bulanıq) və "ab" (su) sözlərindən qurulub, və "bulanıq su, tutqun çay" mənasını verir.

***Xoylu (və ya Xoşulu) məhəlləsi*** – Naxçıvan şəhərində, XVIII əsrin axırlarında Güney Azərbaycanın Xoy şəhərindən köçüb gələrək, Əcəmi Seyrangahının bazar səmtində məskunlaşanlar tərəfindən salınmışdır. Qızlar bulağından başlayaraq Xandikinin aşağısı həmin məhəllə əraziləridir. Əvvəllər oradakı əhali Bazar çayı üstündəki su dəyirmanlarını işlədər və göy-göyərti əkib becərməklə məşğul olardılar. Məhəllədə çoxillik tut, ərik, qoz ağacları ilə bərabər kol bitkilərindən nar, əncir də becərilir.

***Kəngərli məhəlləsi*** – Naxçıvan şəhərinin ən mühüm məhəllərindən biridir. Məhəllə qədimdən şəhər zadəganlarının, hökmdar və hakimlərin imarətlərinin yerləşdiyi ərazi kimi tanınmışdır. Məhəllənin adı eramızın ilk əsrlərindən başlayaraq Naxçıvanda məskunlaşan qədim türk tayfasının – kəngərlilərin adı ilə bağlıdır. Vaxtilə Naxçıvan qalasının (Yezidabad qalası) ən çox müdafiə olunan hissəsində salınmışdır.

***Komayıl / Gömayıl məhəlləsi –*** Bu məhəllə Sarvanlar məhəlləsinin sol tərəfində, kiçik bir ərazini əhatə etmişdir. Məhəllə sakinlərinin deyilənə görə İrəvan çuxuru elindən (Dəvəli-Üçkilsə) köçüb gələn soydaşlarımız olmuşlar. 1937-ci il siyahıya almasında bu məhəllənin sakinlərinin 70–75 faizinin İsmayılov soyadı daşıdıqları müəyyən edilmişdir ki, bu da onların bir tayfaya mənsub olmaları ehtimalını gücləndirir. Məhəllə sağ tərəfdən Qızlar bulağına söykənmiş, Bazar çayı ilə gur sulu çeşmələri əkin yerlərinin suvarılmasına şərait yaradırdı. Bu məhəllədə çoxillik tut ağacları ilə bərabər nar, əncir, zirinc və başqa kol bitkiləri də əkilib becərilir.

***Qala məhəlləsi —*** Qala məhəlləsi Mömünə Xatun türbəsinin yaxınlığında, Xoylu və Atabəylər məhəllələri ilə qonşuluqda olub, yay teatrının və mədəniyyət sarayının ətrafındakı ərazini əhatə etmişdir.

Qaraağac məhəlləsi – Məhəllə indiki tikinti-quraşdırma idarəsinin yerləşdiyi ərazini və ətrafları əhatə etmişdir. 1918-ci ildə məhz bu məhəllənin gəncləri toplaşaraq Naxçıvana hücuma keçən ermənilərə qarşı yerli özünümüdafiə dəstələri yaratmağa başlamışdılar.

***Qurdlar məhəlləsi*** – Naxçıvan şəhərinin ən qədim məhəllələrindən biridir. Bərdə və Ağdam rayonlarında, habelə Gürcüstanın Marneuli (Sarvan) şəhəri (tarixi Borçalı mahalı ətrafları) yaxınlığında da Qurdlar adını daşıyan kəndlər mövcuddur.

***Pirqəmiş məhəlləsi*** – Naxçıvan şəhərinin qədim məhəllələrindən biri. Pirqəmiş məscidi burada yerləşir. Məscidin ətrafında yeraltı suların üzə çıxmasından qamışlıq əmələ gəlmişdir. Məhəllədə çoxillik tut, ərik, qoz, armud və başqa ağaclar əkilib becərilir. Əvvəllər Bazar çayından əraziyə "Söyüdlü arx" ilə su axıb gələrdi.

Sallaqxana məhəlləsi – Naxçıvan şəhərinin sənət və peşə ilə bağlı olan məhəllələrindən birdir. Məhəllənin adı, ərəbcə "sallaq" (qəssab) və farsca "xana" (ev) sözləri əsasında yaranmışdır. Şəhərdə arabaçı, faytonçu işləyənlərin, qəssablıqla məşğul olanların əksəriyyəti bu məhəllədə yaşayırdı.

***Sarvanlar məhəlləsi*** – Naxçıvan şəhərinin ən mühüm məhəllələrindən biridir. Məhəllənin adı Kəngərlilərin bir qolu olan Sarvanlar sülaləsinin adı ilə bağlıdır. Tədqiqatçı T. Əhmədov sarvan sözünün irani mənşəli olub "sar" (dəvə) və "van / ban" (qoruyan) sözləri əsasında yaranıb, "dəvəçi", "dəvə saxlayan" anlamını ifadə etdiyini vurğulayır. Məhəllənin sakinləri XX əsrin 40–50-ci illərinə qədər daha çox dəvəçilik, arabaçılıq və faytonçuluqla məşğul olmuşlar. Sarvanlar sülaləsi müxtəlif tirələrə bölünüb ayrı–ayrı ərazilərdə yaşasalar da, tayfa adını qoruyub saxlamışlar. Müasir Ermənistan (tarixi Qərbi Azərbaycan ərazisi) ərazisində də, əhalisi Azərbaycan türklərindən ibarət olan Sarvanlar kəndi olmuşdur.

***Söyüdlübilan məhəlləsi –*** Naxçıvan şəhərində qədim məhəllə adlarından biri. Məhəllə adı XIX əsrin sonlarına qədər əhali arasında işlədilmiş və tədricən unudularaq yaddaşlara köçmüşdür. Əhalinin dediyinə görə Bazarçaydan çəkilən arx məhəllədən keçdiyi və arx ətrafında söyüd ağacları əkildiyinə görə bura "Söyüdlü arx" da deyilmişdir. Mənbələrin məlumatına görə 1899-cu ildə böyük rus şairi A. S. Puşkinin anadan olmasının 100 illiyi münasibətilə Söyüdlü bilan küçəsinə onun adı verilmişdir. Küçə 1990-cı il hadisələrinə qədər A. S. Puşkinin adını daşımış, sonra küçənin bir hissəsinə İdris Məmmədov, digər hissəsinə isə Məhəmməd Əmin Rəsulzadənin adı verilmişdir. 1993-cü ildə küçənin M. Rəsulzadə adlanan hissəsi İstiqlal adı ilə əvəzlənmişdir. Ümumiyyətlə, toponimin mənası küçədəki söyüd ağaclarının çoxluğu ilə əlaqələndirilir. Tədqiqatçıların bir hissəsinin yazdığına görə, toponimin "bilan" hissəsi ruscadakı "plan" sözünün təhrif olunmuş forması olub, "düz küçə" mənasında işlənir, lakin digərləri "bilan" komponentini türk dillərində "məhəllə", "dəhliz", "küçə" mənasında işlənən balan//palan sözü ilə bağlayırlar. Bakı şəhərində də "bilan" sözünün iştirakı ilə Zərgər palan məhəllə adı indi də işlədilir. Türk dilinin bəzi dialekt və şivələrində də palan sözü məhəllə mənasında açıqlanır. Şəmsəddin Saminin lüğətində "bilan" sözü "yüksək boğaz, Tağ sırtının alçaqca, lakin yerlə mürtəfı bir belindən keçən yol" şəklində açıqlanır. Hinduşah Naxçıvaninin "Əs-siyah əl-əcəmiyyə" adlı əsərində də "balan" sözü "dəhliz" mənasında təqdim olunur. Beləlikcə, Söyüdlü palan məhəllə adı canlı danışıq dilində Söyüdlü bilan şəklinə düşmüşdür. Naxçıvanda indiki Puşkin küçəsinə "Bilan" deyərdilər — məsələn, "Gəlin gedək bilana gəzməyə".

***Şahab məhəlləsi*** – Tədqiqatçıların fikrincə məhəllənin adı, çox güman ki, ərazisində vaxtilə gur su, yaxşı su olmasına görə, fars dilində eyni mənada işlənən "şahab" sözü ilə bağlıdır. Başqa bir fərziyyəyə görə isə, Naxçıvan şəhərinin dörd əsas məhəlləsindən (Sarvanlar, Əlixanlı, Şahab, Qurdlar) Şahab məhəlləsinin adı, Qurdlar məhəlləsi istisna olmaqla, kəngərli tayfasının eyni adlı nəsillərinin (sarvanlar, əlixanlılar) adı ilə bağlı olan Sarvanlar və Əlixanlılar məhəllələri kimi, bu tayfanın Şahbanular tirəsinin adındandır. Bu mülahizəyə görə, "Şahab" toponimi "Şahbanular" etnoniminin xalq dilində dəyişdirilmiş formasıdır.

***Zaviyə / Zəviyyə məhəlləsi*** – Məhəllənin adı ərəb dilində "bucaq" anlamına gəlir. Farsdilli mənbələrdə isə bu söz "müqəddəs yer" anlamında işlədilir. Tarixi memarlıq abidəsi olan Zaviyə (Zəviyyə) məscidi də bu məhəllədə yerləşir.

Naxçıvan şəhərinin bəzi yeni məhəlləri

***Babək məhəlləsi*** – Naxçıvan şəhərində yeni məhəllə. Məhəllənin adı xalq qəhrəmanı, sərkərdə və ictimai xadim Babək əl-Xürrəminin (798–838) adı ilə bağlıdır. Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli, 585 nömrəli qərarı ilə təsbit edilmiş və şəhərin 3-cü mikrorayon yaşayış məntəqəsinə Babək məhəlləsi adı verilmişdir. Məhəllə Əlincə məhəlləsinin kəsişməsindən (Heydər Əliyev məktəbinin yanından) Əliqulu Qəmküsar küçəsinin kəsişməsinə (Daş Məhsulları Sənaye kompleksinə) qədər olan sahəni əhatə edir.

***Əlincə məhəlləsi*** – Naxçıvan şəhərində yeni məhəllə. Məhəllənin adı Əlincə qalasının adı ilə bağlıdır. Naxçıvan şəhər XDS IK-nin 15 oktyabr 1989-cu il tarixli qərarı ilə şəhərdəki 2-ci mikrorayon yaşayış massivinə — Atabəylər məhəlləsinin kəsişməsindən (9 mərtəbənin yanından) Əliqulu Qəmküsar küçəsinin kəsişməsinə (Dəmiryol vağzalına) qədər olan əraziyə Əlincə məhəlləsi adı verilmişdir.